# *Marko CURİÇ:* "Serbiya COP29-da çox aktiv şəkildə iştirak edəcək"




**"Serbiya COP29-da çox aktiv şəkildə iştirak edəcək". Bunu Serbiyanın xarici işlər naziri Marko Curiç Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla Bakıda birgə keçirilən mətbuat konfransında deyib.**

Onun sözlərinə görə, Azərbaycanla Serbiya arasında münasibətlərin qurulmasından 20 ildən çox vaxt keçib:

"Bakıda apardığımız müzakirələr çox faydalı olub. İldən-ilə əməkdaşlıq genişlənir və bu il rekord səviyyədədir. Ancaq biz əməkdaşlığımızı daha da artırmaq niyyətindəyik. İnsanlar arasında da əlaqənin artması üçün iqtisadiyyatımız inkişaf etməlidir. Azərbaycan COP29-a evsahibliyi edəcək. Buna görə təbrik edirəm. Hazırda iqlimlə bağlı təşəbbüslərin həyata keçirilməsi çox önəmlidir".

$t Azərbaycan $g 2024.- 3 sentyabr, (№ 190).- S.15.